*Hüquq müdafiəçilərinin Ermənistan hakimiyyətinin gücə əl atmasına qarşı etirazları. Yerevan, 2004-cü il, aprel.*

*Mənbə: Fotorul/ITAR-TASS*

# Uçurum üzərində körpülər:

## vətəndaş cəmiyyətinin sülhməramlı təşəbbüsləri


Əvəz Həsənov və

Armine İşkanyan



Əvəz Həsənov Humanitar Tədqiqatlar Cəmiyyətinin direktoru və "Azərbaycanda İnsan Hüquqları" jurnalının redaktoru kimi fəaliyyət göstərir. Erməni həmkarları ilə görüşlər və dialoqlarda fəal iştirak edib.

Armine İşkanyan London İqtisadi və Siyasi Tədqiqatlar Ali Məktəbinin müəllimidir. Ermənistan və keçmiş Sovet İttifaqının digər respublikalarında vətəndaş cəmiyyəti, inkişaf, gender və insan hüquqları problemləri üzrə çoxsaylı məqalə və kitabların müəllifidir.


Ermənistan və Azərbaycanda müstəqil vətəndaş cəmiyyəti təşkilatları və ictimai hərəkatlar sovet quruluşunun son onilliyində meydana çıxmağa başladılar. Sovet İttifaqının süqutundan sonra demokratik prinsiplərin tətbiqi Qərbdən gələn yardımın prioritet istiqamətinə çevrildi, çünki vətəndaş cəmiyyətinin inkişafı demokratikləşmə və bazar iqtisadiyyatına uğurlu keçid üçün yaradılması zəruri olan şərait kimi qəbul edilirdi. Bu səylər qeyri-hökumət təşkilatlarının (QHT) misilsiz inkişafına səbəb oldu. Beləliklə, vətəndaş cəmiyyətinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanması prosesinə təsir etmək cəhdləri onun hər iki cəmiyyətdə demokratiya carçısı kimi inkişafı ilə bərabər həyata keçirilirdi. Bu da vətəndaş cəmiyyəti və hökumətlər arasında tez-tez qarşıdurmaya səbəb olurdu. Müstəqil təşəbbüslərə adət etməyən hökumətlər bu təşkilatlara və onları maliyyələşdirən xarici donorlara şübhə ilə yanaşırdılar. Bununla belə, 1994-cü ildən bəri son dərəcə çətin şəraitdə işləməyə məcbur olan vətəndaş cəmiyyəti təşkilatları müxtəlif məsələlərlə məşğul olmuşlar. Bunların arasında insan hüquqlarının müdafiəsi, girovların və hərbi əsirlərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin problemləri və münaqişənin tənzimlənməsində sülh yollarının axtarışı önəmli yer tutur.

Ziddiyyətli reaksiyaya səbəb olan Əliyev rejiminin Azərbaycanda bərqərar olması, Ermənistanda iqtidar-müxalifət qarşıdurması və post-sovet məkanını bürüyən "inqilab" dalğası bu gün vətəndaş cəmiyyətinin fəaliyyət şəraitinin pisləşməsinə gətirib çıxarmış, lakin eyni zamanda yeni imkanlar da açmışdır. Hakimiyyətdə olan rejimlər sülh prosesinə heç kimi yaxın buraxmaq istəmədikləri halda, bu prosesdə irəliləmək üçün münaqişə tərəfləri arasında vətəndaş əlaqələrinin yeni formaları labüd edir.

### Sülh quruculuğunda imkanlar və problemlər

Ermənistan və Azərbaycanda QHT-lərin nüfuzunu və səmərəliliyini bir sıra amillər məhdudlaşdırır: onların potensialı, siyasi mühit və onların daxil olduqları cəmiyyətlərin təbiəti.

Bu ölkələrdə əhalinin kasıblaşması təşkilatlara üzvlük haqları hesabına fəaliyyət göstərməyə imkan vermir, buna görə də QHT-lər onların əsas



maliyyə mənbəyi olan xarici donorlardan birbaşa asılılığa düşürlər. Belə vəziyyətdə həm siyasətçilər, həm də jurnalistlər üçün sülhün yaradılması və münaqişələrin çözülməsi sahələrində fəaliyyət göstərən QHT-lərin məram və məqsədlərini şübhə altına qoymağa imkan yaranır. Eyni zamanda, münaqişənin həllində beynəlxalq toplumun iştirakı məsələn, qonşu Gürcüstanla müqayisədə o qədər də böyük deyil. Müəyyən dərəcədə, bu məsələ icazə məsələsidir, çünki Bakı və Stepanakert beynəlxalq QHT-lərə Dağlıq Qarabağda işləməyə icazə verən ümumi mandatın şərtləri barəsində razılığa gələ bilmədilər. Belə fəaliyyətlə məşğul olan təşkilatların əksəriyyətinin təsir dairəsi məhdud olduğundan, onların gördükləri iş əhalinin yalnız kiçik seqmentini əhatə edir, cəmiyyətin qalan hissəsi isə, bu iş barəsində xəbərsiz olduğundan vətəndaş cəmiyyəti məfhumuna şübhə ilə yanaşır. Bunun nəticəsində, əhalinin sülhün bərqərar olunmasında iştirakı son dərəcə məhduddur, sülh prosesinə aidiyyət hissi də demək olar ki, yoxdur.

Məhdud imkanlardan savayı QHT-lərin inkişaf potensialına mövcud siyasi gerçəkliklər də təsir göstərir. 1999-cu ildə prezident Heydər Əliyev bildirdi ki, "Ermənistanla sülh sazişi imzalanmayana kimi, bizim QHT-lərin ermənilərlə əməkdaşlığına ehtiyac yoxdur. Biz bu siyasi məsələni Koçaryanla həll edəndə bu, kompromis olacaq, çoxları bununla razı olmayacaq, onda QHT-lər xalqları barışdırarlar". Başqa sözlə, QHT-lər sülh prosesinin aktiv iştirakçıları kimi yox, liderlərin ünvanına ictimaiyyətdən gələn tənqidi yumşaltmaq vasitəsi kimi qəbul edilirlər. Hər iki tərəfin vətəndaş cəmiyyətinin fəalları qarşı tərəfin nümayəndələri ilə görüşlərindən sonra vətənlərində təqiblərə və fiziki təzyiqlərə məruz qalırlar. Bu cür hədə-qorxu mühiti hakimiyyətin danışıqlara heç kimi yaxın buraxmamaq siyasətinin ayrılmaz hissəsinə çevrilib.

Bu cür şəraitdə vətəndaş cəmiyyətinin fəalları öz gündəlik fəaliyyətlərində böyük fərdi əzmkarlıq göstərməyə məcburdurlar. Bu cür vəziyyət və vəsait uğrunda gedən rəqabət kiçik QHT toplumu daxilində onların şəxsi münasibətlərinə mənfi təsir göstərir. Bu durum Azərbaycan üçün xüsusilə səciyyəvidir, burada şəxsiyyətlər arasında münaqişələr və təsir sahələri uğrunda aparılan mübarizə vətəndaş cəmiyyətinin parçalanması ilə nəticələndi və onun birgə fəaliyyət imkanını zəiflətdi.

İqtidar-müxalifət mübarizəsi kontekstində QHT-lərin siyasiləşməsinin rolu da böyükdür. Gürcüstanda "qızılgül inqilabı" və Ukraynada "narıncı inqilabda" vətəndaş cəmiyyətinin oynadığı roldan sonra Ermənistan və Azərbaycan hakimiyyətləri öz vətəndaş cəmiyyətlərinə inamsızlıqla baxır, onları müxalifətin gizli silahı kimi qəbul edirlər. Bu təhlükəni dəf etmək üçün hakimiyyətin istifadə etdiyi ən sevimli strategiya hökumət tərəfindən maliyyələşdirilən çoxlu sayda QHT-lərin yaradılmasıdır. Son vaxtlar Ermənistanda iqtidardan asılı olan və ya iqtidara işləyən QHT-ləri bildirən qrbanayin (yəni, cib) termini meydana çıxıb. Azərbaycanda hakimiyyətin nəzarətində olan "Qarabağ Azadlıq Təşkilatı" kimi savaşpərəst QHT-lər plüralizmin təzahürü kimi təqdim edilir, lakin əslində bu təşkilatlar hədə-qorxu vasitəsidir. Vətəndaş cəmiyyətinin sülh təşəbbüslərini yaymaq məqsədi ilə QHT-lər və siyasi partiyalar arasında demək olar ki, heç bir alyans yoxdur. Bu da rəsmi cəmiyyətlə vətəndaş cəmiyyəti arasında mövcud olan uçurumu yenə də sübut edir.

Lakin qeyd etmək lazımdır ki, Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyətləri nümayəndələrinin əksəriyyəti münaqişənin sülh yolu ilə həllinin tərəfdarı və demokratiya prinsiplərinə sadiq olduqlarına baxmayaraq, Dağlıq

Qarabağın gələcəyi haqqında fərqli düşünürlər. Nəticə etibarı ilə, vətəndaş cəmiyyəti daha geniş cəmiyyətin bir hissəsidir və ondan qaynaqlanır. Bu cəmiyyətlərdə münaqişəyə və onun gələcəyinə barışmaz münasibət yer aldığı zaman vətəndaş cəmiyyəti fəallarının mövqelərinin bir-birinə yaxın olmasını gözləmək səhv olardı. Münaqişənin hər iki tərəfində duran vətəndaş cəmiyyətinin təmsilçiləri geniş ictimaiyyətin iştirakını nəzərdə tutan sülh prosesi istiqamətində gərgin iş aparmalı, rəsmi təbliğatın yaratdığı düşmən obrazının mənfi nəticələrini yumşaltmağa çalışmalıdırlar. Lakin nizamlama metodlarında belə konsensusun olması münaqişənin tənzimlənməsində heç də onların siyasi məqsədlərinin üst-üstə düşməsi demək deyil. Vətəndaş cəmiyyətinin vasitəçilik potensialını qiymətləndirərkən bu amili nəzərə almaq lazımdır. Tez-tez məhz vətəndaş cəmiyyəti ölkə rəhbərliyinə əhalinin ümid və qayğılarını çatdırmağa və qadağa edilmiş məsələləri açıq müzakirəyə çıxarmağa qadirdir. Lakin münaqişənin müxtəlif qütblərində olan cəmiyyətlər arasında siyasi körpülər salmaq və ədalətin ziddiyyətli versiyaları arasında orta məxrəci tapmaq xüsusilə çətindir, bu məsələlərin həlli əlavə vasitəçilik səriştələrini tələb edir.

## Layihələr və təşkilatlar

Ermənistan, Azərbaycan və Dağlıq Qarabağda yerli QHT-lər münaqişə tərəfləri arasında görüşlər təşkil edir, hərbi əsirlərin azad edilməsinə çalışır, gənclər üçün yay düşərgələri təşkil edir, vətəndaş təhsili və münaqişələrin həlli sahəsində tədris proqramları aparır, qaçqın və məcburi köçkünlərin müxtəlif səriştələrə yiyələnməsi üçün müxtəlif təlim proqramlarını həyata keçirir. Bu tədbirlər əlaqələrin və ünsiyyət kanallarının yaranmasına, ermənilərlə azərbaycanlıların görüşməsinə imkan verir, düşmən obrazının təbliği prosesinə müqavimət göstərir, barışıq və dialoqa kömək edən sosial münasibətləri möhkəmləndirir. Ən ilk təşəbbüslərdən olan "Sülh karvanı" 1991-ci ildə Helsinki Vətəndaş Assambleyasının (HVA) Ermənistan, Azərbaycan və Gürcüstan şöbələri tərəfindən təşkil olunmuşdu. Bu təşəbbüs münaqişənin nizamlanması perspektivlərini və birgə sülh çağırışının hazırlanması məsələsini müzakirə etmək üçün Ermənistan-Azərbaycan sərhədinin "sülh dəhlizi" adı ilə tanınan Qazax-İcevan hissəsində Ermənistan və Azərbaycanın vətəndaş cəmiyyəti fəallarının görüşünə imkan yaratdı. HVA təşkilatının qlobal şəbəkəsinə daxil olan HVA-nın Qafqaz filialları 1992-ci ildə Ermənistan, Azərbaycan, Gürcüstan və Dağlıq Qarabağda HVA şöbələrinin fəaliyyətinin koordinasiyası və regional əməkdaşlığı məqsədi ilə "Cənubi Qafqaz dialoqu" tədbirini keçirdilər. 1992-ci ildə Anahit Bayandur (Ermənistan) və Arzu Abdullayeva (Azərbaycan) Ulof Palme xatirə fondunun sülh mükafatı ilə təltif edilmiş, 1998-ci ildə isə, Arzu Abdullayeva "Avropa Birliyi və ABŞ hökumətləri demokratiya və vətəndaş cəmiyyəti uğrunda" mükafatına layiq görülmüşdü.

1995-ci ildə Almaniyanın Bonn şəhərində ATƏT-in dəstəyi ilə keçirilmiş konfrans növbəti uğurlu təşəbbüs oldu. Bu konfransın nəticəsində etimadın artırılması ilə bağlı bir sıra tədbirlər, o cümlədən, girovlar və hərbi əsirlərin azad edilməsi, vətəndaş cəmiyyəti fəallarının, tələbələr və jurnalistlərin səfərləri razılaşdırıldı. Konfransdan sonrakı illər ərzində razılaşdırılmış etimad artırma tədbirləri çərçivəsində yüzlərlə girov və hərbi əsirlər dəyişdirilmişdir, lakin Meri Kaldor və Mient Jan Faberə əsasən, 1990-cı illərin axırlarında bu proses yeni siyasi gerçəkliklərə və dinamikanın itirilməsinə görə ləngidi. 1990-cı illərin sonlarından bir neçə regional görüşlər keçirilmiş və bir sıra təşəbbüslər gerçəkləşdirilmişdir. Bu təşəbbüslər arasında 1998-ci ildə qeyri-hökumət təşkilatlarının ən uğurlu və vacib əməkdaşlıq forumu olan Qafqaz QHT Forumunun yaradılması ilə nəticələnən Nalçik seminarını və 2001-ci ildə sülhün qurulması yollarına həsr edilmiş Tsaxkadzor konfransını qeyd etmək lazımdır. Bu görüşlərdə "Beynəlxalq həyəcan" təşkilatının köməkliyi ilə yerli QHT-lərlə beynəlxalq təşkilatların əməkdaşlığı təcrübəsi yer aldı. Həmçinin qeyd etmək lazımdır ki, 2001-ci ildə köçkün əhaliyə yardım məqsədi ilə Qafqazda qaçqınların problemləri ilə məşğul olan QHT-lər şəbəkəsi (CRİNGO) yaradılmışdır.

Son illərdə isə "Katolik Yardım Xidməti", "Barışıq Resursları", "Beynəlxalq Həyəcan" və "Münaqişələr və Dövlət Quruculuğu üzrə London İnformasiya Şəbəkəsi" (LİNKS) kimi beynəlxalq qeyri-hökumət təşkilatları daha bütöv mövqeyin işlənib hazırlanması üçün "Konsorsium təşəbbüsünü" yaratdılar. Britaniya hökumətinin maliyyələşdirdiyi "Konsorsium təşəbbüsü" elə bir strateji yanaşma formasıdır ki, onun çərçivəsində siyasi və vətəndaş dialoquna yardım, münaqişə ilə məşğul olan inkişaf proqramları və cəmiyyətin münaqişə və sülh prosesi haqqında məlumatlandırılması kimi QHT fəaliyyətinin istiqamətləri bir-biri ilə sıx əlaqədə həyata keçirilir. Layihənin konkret məqsədi Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ və məcburi köçkün icmasından olan bütün maraqlı tərəfləri münaqişənin nizamlanması prosesinə cəlb etməkdən ibarətdir.

Hər ölkədə digər tərəfin nümayəndələri ilə aparılan görüşlərə hakimiyyətin qoyduğu qadağalara görə belə layihələr tez-tez regional yanaşma çərçivəsində həyata keçirilir. Ünsiyyətin regional kontekstə salınması birbaşa erməni-Azərbaycan dialoqunun imkanlarını məhdudlaşdırsa da, Qarabağ ermənilərini dialoqa cəlb etmək üçün çox vaxt bu yeganə vasitədir, çünki azərbaycanlılarla Qarabağ erməniləri arasında görüşlərə Bakı icazə verməkdən imtina edir. Bundan savayı, blokada və münaqişələrdən əzab çəkən, cəbhə xətləri ilə hissələrə parçalanan region üçün bu cür tədbirlər ümum-Qafqaz mənafe birliyini hiss etdirən nadir vasitələrdən biridir.

QHT-lərdən savayı qaçqınlar, əsgər anaları, girov və hərbi əsirlərin ailələrinin yaratdığı kiçik

özünəyardım qrupları da fəaliyyət göstərir. Bu təşkilatlar tez-tez QHT-lərlə əməkdaşlıq edirlər, onların arasında tədricən QHT kimi formalaşmaq tendensiyası da müşahidə olunur. Erməni diasporu xüsusilə ABŞ-da Ermənistanın adından onun mövqeyinin tanıdılması, lobbiçilik və xarici yardımın yığılması ilə məşğuldur. Lakin diasporu təmsil edən QHT-lər və ABŞ, Avropa və Yaxın Şərqdə fəaliyyət göstərən ayrı-ayrı şəxslər humanitar yardım proqramlarına və inkişaf layihələrinə öz töhfələrini versələr də, onlar sülh quruculuğu və münaqişənin nizamlanması ilə məşğul olan Ermənistanın yerli QHT-ləri ilə demək olar ki, heç bir əməkdaşlıq etmirlər. Əksinə, diasporun bəzi təşkilatları, xüsusilə millətçi siyasi partiyalar, münaqişə ilə bağlı daha da barışmaz mövqe tuturlar.

## Qadın QHT-ləri və şəbəkələri

Keçmiş SSRİ məkanında fəaliyyət göstərən QHT-ləri fərqləndirən cəhət bu təşkilatlarda çoxlu sayda qadınların işləməsidir. Erməni və azərbaycanlı qadınlar QHT-lər və ümum-Qafqaz əlaqələr şəbəkəsi vasitəsi ilə bir-biri ilə ünsiyyətə girir və sülhün qurulması və münaqişələrin tənzimlənməsi ideyalarını yayırlar. 1994-cü ildə Vaşinqtondakı Milli Sülh Fondunun təşəbbüsü ilə təsis edilmiş "Cənubi Qafqaz qadınlarının dialoqu" qadın QHT-lərinin belə müştərək səylərinin bariz nümunəsidir. 1997-1999-cu illərdən bəri "Cənubi Qafqaz qadınlarının dialoqu" Tbilisi Universitetində üçillik yay məktəbinin keçirilməsi daxil olmaqla ekologiya, demokratik hüquqlar və təhsil sahələrində müxtəlif layihələr həyata keçirmişdir. Qadınların digər regional təşəbbüsləri arasında Şərqi Avropada Demokratiya İnstitutunun sponsorluğu və ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət məsələləri Bürosunun maliyyə dəstəyi ilə icra edilmiş "Birgə işləyirik - Qafqaz qadınlarının əlaqələr şəbəkəsi" proqramını (1997-2002-ci illər) qeyd etmək lazımdır. "Birgə işləyirik" proqramı Ermənistan, Azərbaycan və Gürcüstanın qadın liderləri üçün daha geniş regional əlaqələr şəbəkəsinin yaradılmasını nəzərdə tuturdu. Vətəndaş hüquqları, QHT-lərin inkişafı və trans-sərhəd əlaqələr şəbəkələrinin yaradılması sahələrində hazırlıq kursları və digər tədbirlərin keçirilməsi vasitəsilə Demokratiya İnstitutunun proqramları qadınlarda liderlik keyfiyyətlərinin aşılanması, fərdi potensiallarının və rəhbərlik etdikləri təşkilatların potensiallarının artırılması, nəhayət, qadınların ictimai həyatda fəal iştirak etməsi məqsədlərinə qulluq edirlər.

## Qeyri-müəyyən perspektivlər

Vətəndaş cəmiyyətinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına təsir etmək qabiliyyəti həmişə Ermənistan və Azərbaycanın daxili siyasi dinamikasında imkanlar və məhdudiyyətlərdən asılı olub. Hazırda belə təsəvvür yaranır ki, bu gün vətəndaş cəmiyyətinin fəaliyyətinə qoyulmuş məhdudiyyətlər onun imkanlarını üstələyir, onun gələcəyi isə heç də ürək açan deyil. Münaqişə əvvəlki kimi öz həllindən uzaqdır, sülh prosesinin sürətini saxlamaq üçün böyük səylər tələb olunur, yeni müharibəyə çağırışlar artmaqdadır, buna görə də təşkilatlar və ayrı-ayrı fəallar arasında etinasızlıq meyli meydana çıxa bilər. Hətta rəsmi orqanlara çıxışı olan QHT-lər siyasətə və siyasətçilərə təsir göstərmək imkanına malik deyillər. Üstəlik gözlənilir ki, neft satışlarından gələn gəlirlərin artması və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin yaxınlarda istifadəyə verilməsi Azərbaycan hakimiyyətinin cəmiyyətdən asılılığını azaldacaq.

Belə vəziyyətin bədbin fonunda yaddan çıxarmaq olmaz ki, 1994-cü ildə atəşkəs imzalandıqdan bəri QHT-lər dialoqun yaradılmasında, sülh mədəniyyətinin və insan hüquqlarının aşılanmasında aparıcı rol oynayır, hərbi əsirlərin azad edilməsi istiqamətində iş aparır, münaqişənin hər iki tərəflərində olan insanlar arasında ünsiyyətə kömək edirlər. İllər ötdükcə QHT-lər böyük təcrübə və yeni səriştələrə sahib oldular, bunun nəticəsində ən mühafizəkar hakimiyyət dairələri vətəndaş cəmiyyətinin real potensialını qəbul etməyə məcbur oldular. 14 iyun 2005-ci il tarixində Azərbaycan Xarici İşlər Nazirliyi beynəlxalq toplumun Qarabağ erməniləri və azərbaycanlıları arasında birbaşa əlaqələrin yaradılmasına dair çağırışlarını dəstəkləyən bəyanatla çıxış etdi. Bu bəyanata əsasən, icmalar-arası dialoq və etibarın artırılması üçün müvafiq tədbirlər Qarabağ erməniləri və el-obalarına qayıdan azərbaycanlılar arasında normal münasibətlər üçün lazımi şəraitin hazırlanmasına kömək edəcək. Müharibədən sonrakı dövrdə bu bəyanat ilk dəfə iki icma üçün dialoqa girməyə imkan yaratdı. Başqa bir tendensiya Qarabağın özündə vətəndaş cəmiyyətinin inkişafından ibarətdir, və meydana gələn bu yeni amil Qarabağ ermənilərinin siyasətinə hərbi elementin təsirini tarazlayır.

Gələcəyə nəzər salarkən, vətəndaş cəmiyyətinin prioritet fəaliyyət istiqamətlərindən biri də sülh prosesində daha geniş və məlumatlı iştirak ideyasının cəmiyyətə aşılanması olmalıdır. Regionun gələcək demokratik inkişafı və münaqişənin məqbul və davamlı çözümünün tapılması üçün sülh prosesində ictimaiyyətin bu cür geniş iştirakı çox mühümdür. Bunun üçün vətəndaş cəmiyyəti həm mühüm məsələlər, həm də prosedurlar üzrə təkliflər hazırlayıb danışıqlar aparan tərəflərə təqdim etməlidir. Bundan başqa vətəndaş cəmiyyəti bu prosesə kənarda qalan icmaları cəlb etməli, ağrılı, və çox vaxt qadağa qoyulmuş mövzular ətrafında daxili dialoq təşkil etməlidir. Ermənistan və Azərbaycanın 2000-ci ilin iyununda Avropa Şurasına daxil olması və ardınca gələn Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək öhdəliyi ona dəlalət edir ki, regionun sülhməramlıları Avropa Şurası və Avropa Birliyi kimi strukturların dəstəyinə arxalana bilərlər. Vətəndaş cəmiyyətləri üçün bu cür dəstək həyati əhəmiyyət kəsb edir, lakin nəticədə onlar ümidsiz əhalini sülh yolu ilə nizamlama variantlarına dair məzmunlu dialoqa cəlb etməlidirlər ki, sonradan insanlarda sülh prosesinə aidiyyət hissi yaransın.